Əlixan Musayev

# Möminin dərdi

**Redaksiya heyəti:**

Ə. Musayev

M. Qarayev

A. Salehli

F. Allahverdiyev

Elxan Rüstəmov

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

Həqiqətən, həmd-sənalar yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyir, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət versə, o, haqq yolunda olar və kimi də azdırsa, onu haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

Şübhəsiz ki, ən xeyirli kəlam Allahın Kəlamı, ən doğru yol da Peyğəmbərin ﷺ yoludur. Habelə, ən pis əməl dinə əlavə edilən yeniliklərdir. Hər bir əlavə bidət, hər bir bidət zəlalət və hər bir zəlalət Cəhənnəmə aparan yoldur. Sonrasına gəlincə...

Uca Allah insanları gözəl biçimdə yaratmış və onlara dünya həyatında saysız-hesabsız nemətlər bəxş etmişdir. Əgər insan o nemətləri saymaq istəsə, sayıb qurtara bilməz. Allah insana nə qədər nemət bəxş etsədə nəfs hər zaman daha çox şeylər istəyir və insan dünyadan köçənədək qəlbi müxtəlif arzularla dolu olur. Kimisinin arzusu zəngin olmaq, vəzifəyə keçmək, çoxlu mal-dövlət toplamaq, kimisininki istehsal etmək, tikmək, qurmaq, kimisininki əkib-becərmək, heyvandarlıqla mə.-ğul olmaq, kimisininki övlad böyütmək, onu evləndirmək, nəvə-nəticə görməkdir və s. Dinimizə zidd olmayan arzularla yaşamaq və onlara nail olmaq üçün səy göstərmək icazəli sayılsa da, bu arzular həyata keçmədiyi təqdirdə onları özünə dərd etmək bəyənilməyən əməllərdəndir. Bu fani dünyada insan nəinki arzularının həyata keçməməsindən dolayı məyus olur, habelə ağla gəlməyən sıxıntılarla üzləşib bunu özünə dərd edə bilir. Demək, hər bir insan bu həyatda fərqli məsələləri

özünə dərd edə bilər, lakin gəlin, baxaq görək bəşəriyyətə nümunə olmuş peyğəmbərlərin ﷺ və onların yolunu tutub gedən əməlisaleh möminlərin arzuları nə olmuş, nəyi özlərinə dərd etmişlər. Bu xüsüsda Peyğəmbər ﷺ demişdir: "Kim bütün dərdlərini bir dərd – axirət dərdi edərsə, Allah onun dünyəvi dərdlərinin hamısını aradan qaldırmağa yetər. Kim də dünya işlərindəki dərdlərini çoxaldarsa, Allah onun dünyanın hansı vadisində həlak olacağına əhəmiyyət verməz."[1]

Hədisdə: "Kim bütün dərdləri axirət dərdi edərsə" deyildikdə, Axirət həyatının hər şeydən önəmli olması və hər kəsin öz sonluğunun necə olacağı barədə daha çox düşünməsinin vacibliyi başa düşülür. Belə olduğu təqdirdə, dünyadakı istənilən dərd və sıxıntı insana daha az əziyyət və zərər yetirir. Onun qəlbi rahatlıq tapır, imanı artır, qədərinə yazı-

[1] Sunən İbn Macə, 257; Mustədrək əl-Hakim, 3658; Musannəf İbn Əbu Şeybə, 13/221; Səhih əl-Cami, 6189.

lanlardan razı qalır və elə buna görə də Allah onun sıxıntılarını aradan qaldırır, işlərini avand edir. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "Kimin dərdi Axirəti qazanmaq olarsa, Allah zənginliyi onun qəlbinə yerləşdirər, *o, hər şeyə qane olar*, onun işlərini avand edər və *qədərinə yazılmış* dünya malı ram edilmiş halda ona çatar. Kimin də dərdi dünyanı qazanmaq olarsa, Allah kasıblığı onun gözləri arasına qoyar, işlərini dolaşığa salar, dünya malından da, yalnız qədərinə yazılmış olanını əldə edər."[1]

Hər iki hədisin ikinci hissəsinə diqqət etdikdə görürük ki, fani dünyanı özünə dərd edən kimsənin aqibəti çox pis olur. Bu xüsüsda, Quranda belə buyurulur: **"Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər. Belələrinin axi-**

[1] Sunən ət-Tirmizi, 2/76; Silsilə əl-Əhadis əs-Səhihə, 949-cu hədis.

**rətdə oddan başqa heç bir payı olmaz. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar."**[1]

Axirəti qazanmağa səy göstərənlərin xoş halına! Fani dünyaya könül bağlayanların isə vay halına! **"Kim fani dünyanı istəsə, orada ona istədiyimiz şeyləri dərhal verərik. Sonra isə onu qınanmış və *Allahın rəhmətindən* qovulmuş halda girəcəyi Cəhənnəmə atarıq. Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onun səyi məmnuniyyətlə qəbul olunar."**[2]

Gəlin, baxaq görək səhabələrin dərdi nə idi, onları bu həyatda ən çox nə narahat edirdi? Bu möhtərəm insanların həyat hekayələrini oxuyarkən, gəlin, hər birimiz özümüzə sual verək, öz nəfsimizi hesaba çəkək: "Onların özlərinə dərd etdiyini biz də özümüzə dərd edirikmi, yoxsa dərdimiz yalnız bu fani

---

[1] Hud, 15-16.

[2] əl-Əla, 16-17.

dünyanın keçici sıxıntılarından ibarətdir? Yoxsa, elə düşünürük ki, bizim üzləşdiyimiz sıxıntılar onların başına gəlməmişdir?" Əksinə, onlar daha çox sınağa çəkilmiş, lakin bunu özlərinə dərd etməmişlər.

Rəvayət edilir ki, səhabələrdən biri Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah! Mən səni özümdən də, ailəmdən də, övladımdan da, var-dövlətimdən də çox sevirəm. Mən evdə olanda səni xatırlayır və səni görənə qədər rahatlıq tapa bilmirəm. Lakin hər ikimizin öləcəyini xatırlayanda, düşünürəm ki, sən Cənnətə girəcəksən və peyğəmbərlərə عليهم السلام xas olan ən yüksək mərtəbədə olacaqsan. Mən isə, Allah bilir, hara düşəcəyəm, qorxuram, bir daha səni görməyim..."[1]

Səhabənin özünə nəyi dərd etdiyinə, Peyğəmbəri ﷺ bir daha görə bilməmək düşün-

[1] Təbərani, Mocəm əl-Əvsat, 1/29/1-2; Silsilə əl-Əhadis əs-Səhihə, 2933.

cəsinin onun qəlbini necə narahat etdiyinə diqqət edin! Budur, iman dolu saleh qəlbin fərqi.

Rəvayət edilir ki, Rəsulullah ﷺ Bədr döyüşündən qabaq, əlindəki əsa ilə cərgələri düzəldərkən Suvad رضي الله عنه adlı bir səhabənin qarnından yavaşca vurub: "Düz dur, ey Suvad!"– deyə buyurdu. Suvad رضي الله عنه dedi: "Ya Rəsulullah, sən məni incitdin. Axı, Allah səni haqq-ədaləti bərqərar etmək üçün göndərib. Elə isə mənim haqqımı ver." Onda Rəsulullah ﷺ köynəyini qaldırıb: "Gəl, sən də məni vur!" dedi. Suvad رضي الله عنه Rəsulullaha ﷺ yaxınlaşdıqda, (səhabələr heyrət içində və qəzəblə ona baxmağa başladılar), o isə, əlindəki ağacı yerə atıb Rəsulullahı ﷺ qucaqladı və qarnından öpdü. Rəsulullah ﷺ soruşdu: "Niyə belə etdin, ey Suvad?" Suvad dedi: "Ya Rəsulullah, artıq şəhidlik məqamı yaxınlaşıb. Mən istədim ki, bu dünyada sənə göstərdiyim son ehtiramım, bədənimin bədəninə dəyməsi olsun!"[1]

---

[1] Sira İbn İshaq, 2/266; Əsəd əl-Ğabə, 2/332; Silsilə əl-Əhadis əs-Səhihə, 2835.

Səhabənin bu həyatdakı son arzusuna, nəyi özünə dərd etdiyinə diqqət edin! Budur, Allah rizasını qazanmaq üçün yaşayan və Onun yolunda şəhid olmağa hazır olan vücudun fərqi!

Rəvayət edilir ki, Uhud döyüşündə iştirak etmək istəyən Amr ibn Cəmuh رضي الله عنه çox yaşlı, üstəlik də, axsaq idi. Onun dörd oğlu bu döyüşdə iştirak edəcəkdi və atalarının döyüşdə iştirak etməsinə narazı idilər. Nəhayət, Rəsulullah ﷺ ona: "Bu yaşda cihada getmək sənin üçün vacib deyil"– deyəndə, Abdullah رضي الله عنه israr etdi və dedi: "Canım əlində olan Allaha and olsun ki, bu axsaq ayağımla Cənnətə girməyincə geri qayıtmayacağam." O, şəhid olduqdan sonra, Peyğəmbər ﷺ dedi: "İnsanlar arasında elələri var ki, Allahın adı ilə and verdikdə, Allah onları istəklərinə çatdırır. Amr ibn Cəmuh da, belələrindəndir. Mən onun o ayağı ilə Cənnətə qədəm qoyduğunu gördüm." [1]

---

[1] Səhih İbn Hibban, 6985; şeyx Albani hədisin isnadının "səhih" olduğunu demişdir. Bax: Fiqh əs-Sira, 1/260.

Səhabənin ayağı şikəst olduğu halda, sağlam qardaşlarından geri qalaraq, Cənnəti qazana bilməyəcəyini özünə dərd etməsinə diqqət edin! Budur, canı sağlam olub düşmən qarşısından qaçan qorxaq qəlblə, sağlamlığı imkan verməsə belə, Allah yolunda vuruşub şəhid olan cəsur qəlbin fərqi!

Burada Peyğəmbərin ﷺ xətibi kimi tanınmış səhabə Sabit ibn Qeysi رضي الله عنه də misal çəkmək yerinə düşər. Rəvayət edilir ki, əl-Hucurat surəsinin: **"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi, ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz hədər gedər"**[1] ayəsi nazil olduqdan sonra Sabit ibn Qeys evindən bayıra çıxmadı və: "Mən Cəhənnəm əhlindənəm"– deyərək Peyğəmbərin ﷺ gözünə görünməkdən çəkindi. Peyğəmbər ﷺ Səd ibn Muazdan: "Ey Əbu Amr! Sabitə nə

[1] əl-Hucurat, 2.

olub, xəstələnibmi?"– deyə onu xəbər aldı. Səd dedi: "O, mənim qonşumdur. Onun xəstələnməyindən xəbərim yoxdur." Sonra Səd Sabitin yanına gəlib, Peyğəmbərin ﷺ sözünü ona xəbər verdi. Sabit dedi: "Bu ayə nazil oldu! Özünüz də yaxşı bilirsiniz ki, aranızda səsini Peyğəmbərin ﷺ səsindən yüksəyə qaldıran mənəm.[1] Deməki, mən Cəhənnəm əhlindənəm." Səd onun dediklərini Peyğəmbərə ﷺ xəbər verdikdə Peyğəmbər ﷺ buyurdu: "Əksinə, o, Cənnət əhlindəndir![2]"[3]

Səhabənin Peyğəmbərin ﷺ yanında səsini yüksəltməklə əməllərinin puç olduğunu düşünərək, bunu özünə dərd etdiyinə diqqət edin! Budur, Allahın və Onun rəsulunun ﷺ dediklərinə əməl edən və onu olduğu kimi insanlara təbliğ edən dəvətçinin fərqi!

---

[1] O, Peyğəmbərin ﷺ göstərişi ilə onun yanına gələnlərə xütbə verər və təbii ki, səsini qaldırardı.

[2] Sabit ibn Qeysi رضي الله عنه Yəmamə döyüşündə şəhid olmuşdur (Musnəd İmam Əhməd, 3/137).

[3] Səhih Muslim, 119.

Rəbiə ibn Kəb əl-Əsləmi رضي الله عنه demişdir: "Bir gecə mən Peyğəmbərlə ﷺ bir yerdə qaldım. Həmin vaxt mən ona dəstəmaz almaq üçün su və digər ehtiyacı olan şeyləri gətirdim. Onda o mənə: "İstə!"– deyə buyurdu. Dedim: "Cənnətdə sənin yanında olmaq istəyirəm." Dedi: "Bəlkə, başqa bir şey istəyəsən?" Dedim: "İstədiyim elə budur, ya Rəsulullah!" Rəsulullah ﷺ buyurdu: "Elə isə, çoxlu səcdə etməklə[1] muradına çatmağına kömək ol!"[2]

Peyğəmbərin ﷺ duası ilə istəyəcəyi hər bir arzusunun mütləq şəkildə həyata keçəcəyini bildiyi halda, səhabənin məhz Cənnətdə Peyğəmbərin ﷺ yanında olmamaq ehtimalını özünə dərd etməsinə diqqət edin! Budur hər zaman Peyğəmbərin ﷺ yanında olmağın dəyərini anlayanın fərqi!

---

[1] Yəni ömrünün sonunadək namazların hamısını – fərzləri və sünnələri – vaxtlı-vaxtında və doğru-düzgün qılmaqla.

[2] Səhih Muslim, 489.

Rəvayət edilir ki, bir gün Talhə ibn Ubeydullaha رضي الله عنه Hədrəmovtdən yeddi yüz min dirhəm hədiyyə gətirdilər. Həmin gecə o, bərk narahat olduğundan, yata bilmirdi. Zövcəsi soruşdu: "Nə olub sənə?" Talhə رضي الله عنه dedi: "Bayaqdan düşünürəm ki, görəsən, Rəbbinin hüzurunda haqq-hesaba çəkiləcəyini bilən adam, evində bu qədər pulu olduğu halda necə rahat yata bilər?" Zövcəsi dedi: "Axı, niyə sən mömin qardaşlarından geri qalmalısan?! Səhər açılan kimi, sinilərlə bu dirhəmləri kasıblara payla!" Talhə رضي الله عنه zövcəsindən bu cavabı eşidəndə dedi: "Allah sənə rəhm eləsin! Sən, həqiqətən, muvəffəqin qızı muvəffəqasan.[1] Nəhayət, səhər açıldıqda, Talhə رضي الله عنه bu dirhəmləri kasıblara payladı.[2]

---

[1] Tərcüməsi: xeyirxah işlər görməyə müvəffəq edilmiş kişinin, xeyirxah işlər görməyə müvəffəq edilmiş qızısan. Bu qadın, Əbu Bəkr əs-Siddiqin رضي الله عنه qızı Ummu Kulsum رضي الله عنها idi.

[2] Zəhəbi, Siyər əl-Əlam ən-Nubələ, 1/31.

Səhabənin kasıblığı deyil, əksinə, əlindəki var-dövlətin çoxluğunu, Allahın hüzuruna çıxacağı gün bu var-dövlətin hesabını verməyin çətinliyini özünə dərd etdiyinə diqqət edin! Budur, halal yolla ruzi qazanıb, yalnız maddi olaraq deyil, həm də mənəvi cəhətdən zəngin olanın fərqi!

Rəvayətlərin birində Abdur-Rəhman ibn Auf رضي الله عنه demişdir: "Bədr döyüşündə mən döyüşçülərin cərgələrində ikən sağıma və soluma baxıb gördüm ki, yanımda ənsardan olan (13-14 yaşlı) iki gənc durub. Onda mən, qüvvətli adamların arasında olmağı təmənna etdim. Gənclərdən biri məni dümsükləyib dedi: "Əmican, Əbu Cəhli tanıyırsanmı?" Dedim: "Bəli, *tanıyıram*! O, sənin nəyinə lazımdır, qardaş oğlu?" Gənc dedi: "Mənə deyiblər ki, o, Peyğəmbəri ﷺ söyür. Canım Əlində olan Allaha and olsun ki, əgər mən onu görsəm, ikimizdən birimiz ölməyincə mən ondan əl çəkməyəcəyəm!" Mən o gəncin bu sözünə heyrət etdim. O birisi də məni dümsükləyib

eyni sözləri dedi. Çox keçmədən mən Əbu Cəhlin döyüş meydanında vurnuxduğunu gördüm və gənclərə: "Soruşduğunuz adam bax, budur!"– dedim. Onlar qılınclarını çəkib Əbu Cəhlin üstünə cumdular və onu öldürənədək qılıncladılar..."[1]

Bu iki gəncin Peyğəmbərə ﷺ düşmənçilik edən kafirdən intiqam almağı özlərinə dərd etməsinə, azyaşlı olmaqlarına baxmayaraq Peyğəmbəri ﷺ müdafiə edərək canlarını fəda etməyə belə hazır olduqlarına diqqət edin! Budur, Peyğəmbərin ﷺ vəsf etdiyi kimi İslamda böyüyüb boya-başa çatan, Allahın kölgəsi altında olacaq yeddi sinif insandan biri olacaq[2] gəncin fərqi!

Rəvayət edilir ki, Əbu Talhə رضي الله عنه Ummu Suleymə رضي الله عنها elçi düşür, özü ilə də, olduqca böyük mehr gətirir. Ummu Suleym رضي الله عنها isə onun təklifini qəbul etməyib deyir: "Mən müşrikə

[1] Səhih əl-Buxari, 3141.

[2] Səhih əl-Buxari, 660.

ərə gedə bilmərəm.” Əbu Talhə رضي الله عنه məyus halda geri qayıdır, qadının bu qədər mehrdən imtina etdiyinə inana bilmir. Ertəsi gün daha çox qızıl-gümüş götürüb onun yanına gəlir. Ummu Suleym رضي الله عنها yenə etirazını bildirib deyir: “Ey Əbu Talhə, heç bir qadın sənin kimi kişiyə yox deməz, lakin sən kafirsən, mən isə müsəlman. Mənim sənə ərə getməyim halal deyildir. Gətirdiyin bu qızıl-gümüş sənin üçün əziz olsa da, mənim bunlara ehtiyacım yoxdur. Əgər İslamı qəbul etsən, bu, sənin mənə verdiyin ən gözəl mehr olar və mənə bundan başqa bir şey lazım deyil.” Bu kəlmələr Əbu Talhənin رضي الله عنه qəlbinə yeridi, Allah ona hidayət verdi və o, İslamı qəbul etdi.”[1]

Bu qadının Peyğəmbərin ﷺ: “Ey Əli! Əgər Allah sənin vasitənlə bir nəfəri doğru yola yönəltsə, bu, sənin üçün qırmızı dəvə sürü-

---

[1] Musannəf Abdurrazzaq, 10417; Musnəd ət-Təyalisi, 2/159; Təbərani, Mocəm əl-Kəbir, 5/92.

sündən daha xeyirli olar" hədisində[1] buyurduğu kimi yaşamasına, birinin doğru yolda olmamasını özünə dərd etməsinə diqqət edin! Budur, mal-dövləti deyil, Peyğəmbərin ﷺ buyuruqlarını hər şeydən üstün tutan qadının fərqi!

Əta ibn Əbu Rəbah demişdir: "Bir gün İbn Abbas رضي الله عنهما mənə dedi: "Sənə Cənnət əhlindən olan bir qadın göstərimmi?" Mən: "Göstər"– dedim. İbn Abbas رضي الله عنهما dedi: "Bu zənci qadın bir vaxt Peyğəmbərin ﷺ yanına gəlib dedi: "*Ya Rəsulullah,* mən *bəzən* bayılıram və üstüm açılır. Mənim üçün Allaha dua et!" Peyğəmbər ﷺ buyurdu: "İstəyirsən səbir et, sənə Cənnət nəsib olsun, istəyirsənsə, dua edim, Allah sənə can sağlığı versin." Qadın dedi: "Mən səbir edərəm, amma mənim üstüm açılır. Allaha dua et ki, üstüm açılmasın." Peyğəmbər ﷺ də onun üçün dua etdi."[2]

---

[1] Səhih əl-Buxari, 2942.

[2] Səhih əl-Buxari, 5652; Səhih Muslim, 2576.

Bu qadının Peyğəmbərin ﷺ verdiyi vədlə Cənnətə girəcəyini bildiyi halda, üst-başının açılması ilə iffətinə zərrə qədər də olsa kölgə düşə biləcəyini özünə dərd etməsinə diqqət edin! Budur, İsalamın dəyərlərini öz həyatında qüsursuz şəkildə əks etdirən əxlaqın fərqi.

Rəvayət edilir ki, Fatimə رضي الله عنها ölüm yatağında ikən Əsmaya رضي الله عنها dedi: “Ey Əsma! Qadınların sadəcə kəfənə bükülmüş halda dəfn edilməsi mənim xoşuma gəlmir. Çünki belə olduğu təqdirdə onların bədən üzvləri bilinir.” Əsma رضي الله عنها ona: “Ey Rəsulullahın ﷺ qızı! Həbəşistanda gördüyüm bir şeyi sənə göstərimmi?”– dedi, sonra da yaş budaqlar gətizdirib yerə qoydu və onun üzərinə örtük tutdu. Onda Fatimə رضي الله عنها dedi: “Nə gözəl! Bunun sayəsində kişini qadından fərqləndirmək olar. Fatimə رضي الله عنها vəfat etdikdən sonra onu Əsmanın məsləhət gördüyü tərzdə dəfn etdilər.”[1]

[1] Sunən əl-Beyhəqi, 7180; Hilyətul-Ovliya, 2/43; Cilbabul-Mərətul-Muslimə, 1/135.

Peyğəmbərin ﷺ ciyərparəsi olmuş Fatimənin رضي الله عنها dünyadan köçdükdən sonra belə bədən əzalarının bilinməsini özünə dərd etməsinə diqqət edin! Budur, həyasını vəfatından sonra belə qorumağa çalışan və bu əməliylə də özündən sonra müsəlman aləmində gözəl bir sünnə qoyub gedən, ümmətin ən fəzilətli qadınının[1] fərqi.

Rəvayət edilir ki, Əbu Hureyrə رضي الله عنه demişdir: "Biz Cəfəri,[2] Əbul-Məsakin[3] çağırardıq! O, bizi – Suffə-əhlini tez-tez evinə dəvət edər və bizə yemək-içmək verərdi. Hətta, evində yeməyə bir şey tapmadıqda, dibində azacıq bal qalmış saxsı qabı bizə gətirər və biz də barmağımızla onun dibini sıyırıb yalayardıq."[4]

---

[1] Peyğəmbər ﷺ demişdir: "Ey Fatimə! Bu ümmətin qadınlarının ən fəzilətlisi olmağına razı deyilsənmi?" (Səhih əl-Buxari, 6286; Səhih Muslim, 7/142-144).

[2] Cəfər ibn Əbu Talib رضي الله عنه Peyğəmbərin ﷺ əmisi oğlu və Əli ibn Əbu Talibin رضي الله عنه doğma qardaşıdır.

[3] Tərcüməsi: kasıblar atası.

[4] Təbərani, Mocəm əl-Kəbir, 2/109; əl-Bidayə vən-Nihayə, 6/454.

“Atacan, qonşumuz ac olduğu halda mən yemək yeməyə utanıram”[1]– deyən, ətrafında ac kimsələr olduğu halda, tox yatmağı özünə dərd edən kişiyə diqqət edin! Budur, mal-dövlətini çoxaltmaqla dünyanı qazanmaq deyil, sədəqə verməklə, axirəti qazanmaq istəyən möminin fərqi!

Rəvayət edilir ki, Salman əl-Farisi رضي الله عنه demişdir: “Mən İsfahanda – Cey deyilən bir məmləkətdə yaşayırdım. Atam da, həmin məmləkətin böyüyü, həm də ən zəngin adamlarından biri idi. O, məni hamıdan çox sevirdi, günü-gündən də mənə olan məhəbbəti artırdı. O, məni heç yerə buraxmır, cariyə kimi evdə saxlayırdı. Getdikcə, mən əqidəli bir atəşpərəstə çevrilirdim. İş o yerə gəlib çatmışdı ki, mən bircə saat belə oddan ayrı qala bilmirdim. O vaxtlar atamın torpaq sahələri var idi. Bir gün onun başı işə bərk qarışmışdı

[1] Bu, Cəfər ibn Əbu Talib رضي الله عنه sözüdür.

deyə, məni yanına çağırıb: "Oğlum, mənim evdə bir az işlərim var, bəlkə bu gün gedib çöldəki yerlərimizə bir baş çəkəsən"– dedi və orada bəzi işləri görməyi mənə tapşırdı. Mən oraya gedərkən, yolda nəsranilərin kilsəsinin yanından keçdim və onların səslərini eşitdim, içəri daxil olub onların namaz qıldıqlarını gördüm. Atam məni ev dustağı etmişdi deyə, mənim belə şeylərdən xəbərim yox idi. Onların namazı mənim xoşuma gəldi, məndə bu dinə rəğbət oyandı və mən öz-özümə dedim: "Vallahi, bu din bizim sitayiş etdiyimiz oddan daha xeyirlidir." Mən çöldəki yerlərimizə getməyib gün batanadək nəsranilərin yanında qaldım. Sonra onlardan: "Bu dinin əsli haradadır?"– deyə soruşdum. Onlar: "Şamdadır"– dedilər. Beləcə, mən atamın tapşırdığı işi yerinə yetirməyib, onun yanına qayıtdım. Mən evə gəldikdə atam dedi: "Oğlum, harada idin? Məgər, mən səni iş dalınca gön-

dərməmişdim?" Dedim: "Atacan! Mən kilsədə namaz qılan insanlara rast gəldim və onların dini mənim xoşuma gəldi. Mən belə bir din görməmişdim. Odur ki, axşamadək onların yanında idim." Atam dedi: "Oğlum, o dində heç bir xeyir yoxdur. Sənin və ata-babalarının dini bundan daha xeyirlidir." Mən dedim: "Xeyr, vallahi ki, bu din bizim dinimizdən daha xeyirlidir." Onda, atamın canına qorxu düşdü, atəşpərəstlikdən üz döndərəcəyimdən qorxdu və elə buna görə də məni ev dustağı edib, əl-ayağımı bağladı ki, heç yerə qaçıb gedə bilməyim. Mən fürsət tapıb nəsranilərə xəbər göndərdim ki, əgər Şama bir karvan getsə, mənə xəbər versinlər. Çox keçmədi ki, nəsranilər Şam karvanının gəldiyini mənə bildirdilər. Mən onlara xəbər göndərdim ki, Şam tacirləri alış-verişlərini qurtarıb Şama qayıtmaq istədikdə, mənə xəbər versinlər. Nəhayət, onlar mənə tacirlərin yola

düşmək istədiyini bildirdilər. Mən ayağımdakı qandalları açıb evdən qaçdım və özümü həmin karvana yetirib onlarla bərabər Şama yollandım. Şama çatdıqda dedim: “Bu dini bilən ən savadlı adamı mənə göstərin.” Mənə kilsədəki baş keşişi göstərdilər. Mən onun yanına gedib dedim: “Mən bu dini qəbul etmişəm, qəlbimi ona bağlamışam və istəyirəm ki, sənin yanında qalıb sənə xidmət edim, səndən savad alım və səninlə birgə namaz qılım.” Baş keşiş mənə yanında qalmağa izin verdi. O, çox yaramaz adam idi. Öz havadarlarına Allah yolunda sədəqə verməyi əmr edir, lakin yığılan sədəqəni özünə götürürdü, kasıblara heç nə vermirdi. İş o yerə gəlib çatmışdı ki, bu yaramaz adam yeddi küp qızıl-gümüş yığmışdı. Bu əməlinə görə mən ona nifrət edirdim. Nəhayət, baş keşiş öldükdən sonra, nəsranilər onu dəfn etmək üçün onun başına yığışdılar. Onda, mən onlara de-

dim: "Sizin bu keşişiniz çox dələduz adam idi. O, sizi sədəqə verməyə təhrik edir, sonra da verdiyiniz sədəqələri özünə götürür və kasıblara heç nə vermirdi." Onlar soruşdular: "Nə bilirsən ki, o belə edirdi?" Dedim: "İstəyirsinizsə, onun yığdığı pulların yerini sizə göstərim?" Onlar: "Göstər!"– dedilər. Mən onun xəzinəsinin yerini onlara göstərdim və onlar oradan yeddi küp qızıl-gümüş çıxartdılar. Həqiqət bəlli olduqdan sonra onlar: "Allaha and olsun ki, biz bunu basdırmayacağıq"– dedilər və çarmıxa çəkib daş-qalaq etdilər. Bundan sonra onun yerinə başqa birisini seçdilər və mən uzun müddət onun yanında qaldım. Mən, namazlarını vaxtlı-vaxtında qılan, dünyaya könül bağlamayıb, Axirətə can atan, gecə-gündüz Allahın itaətində duran onun tək dindar birisini görməmişdim. Mən onu çox sevirdim. Nəhayət, ölüm onu haqladıqda, mən dedim: "Ey filankəs!

Mən uzun müddət sənin yanında qaldım, səni səmimi-qəlbdən sevdim, heç kəsi sənin qədər sevməmişdim. Budur, Allahın əmri ilə ölüm səni haqlayıb. Mənə nə nəsihət edirsən? De görüm, sən öləndən sonra kimin yanına gedim?" O dedi: "Oğlum, əsl dindarlar ölüb getmiş və insanlar bu dini təhrif etmiş, həqiqəti gizlətmişlər. Vallahi, mən bu əqidədə olan yalnız bir nəfəri tanıyıram, o da, Mosul şəhərində yaşayan filankəsdir. Gedərsən onun yanına!" O, vəfat etdikdən sonra, mən Mosulda yaşayan adamın yanına gəlib dedim: "Ey filankəs! Filankəs ölüm ayağında ikən mənə sənin tövhid dinində olduğunu xəbər vermiş və mənə sənin yanına gəlməyi tövsiyə etmişdir." O, mənə yanında qalmağa izin verdi və mən bir müddət onun yanında qaldım. Mən onun çox mehriban, xeyirxah bir insan olduğunu gördüm. Nəhayət, ona da ölüm yetişdikdə mən dedim: "Ey filankəs!

Filankəs mənə sənin yanında qalmağı nəsihət etmişdi. Budur, Allahın əmri ilə ölüm səni haqlayıb. İndi mən nə edim, sən öləndən sonra kimin yanına gedim?” O dedi: “Oğlum, vallahi, mən bizim əqidədə olan yalnız bir nəfəri tanıyıram, o da, Nəsibin şəhərində yaşayan filankəsdir. Gedərsən onun yanına!” O, vəfat etdikdən sonra mən Nəsibində yaşayan adamın yanına gəlib, dostumun dediklərini ona xəbər verdim. O, mənə yanında qalmağa izin verdi və mən bir müddət onun yanında qaldım. Mən onun əvvəlki iki kişi kimi tövhid əhli olduğunu, çox mehriban və xeyirxah bir insan olduğunu gördüm. Çox keçmədi ki, onun da əcəli çatdı. Ölüm ayağında ikən mən ona dedim: “Ey filankəs! Filankəs mənə filankəsin yanına getməyi, o da, mənə sənin yanına gəlməyi nəsihət etmişdi. Sən mənə nə əmr edirsən, sən öləndən sonra mən kimin yanına gedim?” O dedi:

“Oğlum! Vallahi ki, mən bizim əqidədə olan yalnız bir nəfəri tanıyıram, o da, Əmmuriyyə şəhərində yaşayır. İstəyirsənsə, onun yanına get!” O vəfat etdikdən sonra, mən Əmmuriyyədə yaşayan adamın yanına gəlib dostumun dediklərini ona xəbər verdim. O, mənə yanında qalmağa izin verdi və mən bir müddət onun yanında qaldım. Onun yanında qaldığım müddətdə Allah mənə çoxlu mal-qara və qoyun-quzu nəsib etdi. Çox keçmədi ki, bu kişinin də əcəli yetişdi. Ölüm ayağında ikən mən ona dedim: “Ey filankəs! Mən filankəsin yanında idim. O, mənə filankəsin yanına getməyi, filankəs də mənə filankəsin yanına getməyi, o da, mənə sənin yanına gəlməyi nəsihət etmişdi. Bəs, sən mənə nə buyurursan, sən öləndən sonra mən kimin yanına gedim?” O dedi: “Oğlum! Vallahi, mən bizim əqidəmizdə olan elə bir adam tanımıram ki, səni onun yanına göndərim. Lakin

ümidini üzmə, İbrahimin dinində عليه السلام olan peyğəmbərin göndəriləcəyi vaxt artıq yaxınlaşıb. O, ərəblərin arasından çıxacaq, qövmü onu qovub yurdundan çıxartdıqdan sonra Hərraya, Mədinə yaxınlığında yerləşən, qaralmış daş-kəsəklərlə dolu bir sahəyə xurmalıqlar olan bir yerə hicrət edəcək. Onun hamıya bəlli olan peyğəmbərlik əlamətləri vardır: hədiyyəni yeyər, sədəqəni isə yeməz və bir də çiyinləri arasında peyğəmbərlik möhürü vardır. O yerlərə gedə bilərsənsə, get!"

O, vəfat etdikdən sonra mən Allahın qədərimə yazdığı qədər Əmmuriyyədə qaldım. Nəhayət, bir gün mən Kəlb qəbiləsindən olan tacirlərə rast gəldim və onlara: "Məni ərəblərin diyarına aparmağa razılıq versəniz, mal-qaramı və qoyunlarımı sizə verərəm"– dedim. Onlar mənim təklifimlə razılaşdılar və mən bütün varidatımı onlara verdim. Tacirlər məni Mədinə yaxınlığındakı bir vadiyə gətirdi-

lər və haqsızlıq edib, məni kölə olaraq bir yəhudiyə satdılar. Mən onun yaşadığı yerə gəlib çatdıqda xurma ağaclarını gördüm və ürəyimə damdı ki, bu, dostumun mənə vəsf etdiyi yerlərdir. Mən içimdə rahatlıq tapa bilmirdim. Elə bu dəm ağamın mədinəli – bəniqureyzəli əmisi oğlu onun yanına gəldi və məni satın alıb Mədinəyə apardı. Vallahi, mən Mədinəni görəndə, keşişin sözləri yadıma düşdü və axtardığım yeri tapdığımı güman etdim. Həmin ərəfədə artıq Allah Öz peyğəmbərini ﷺ insanlara göndərmişdi. Peyğəmbər ﷺ bir müddət Məkkədə dəvət apardı. Mən kölə idim deyə, onun haqqında heç bir məlumatım yox idi. Sonra Peyğəmbər ﷺ Mədinəyə hicrət etdi. Bu ərəfədə mən ağam üçün ağacdan xurma yığırdım. Həmin vaxt ağamın əmisi oğlu onun yanına gəldi və onlar ağacın altında durub söhbət etməyə başladılar. Biri o birinə dedi: “Allah Bəni-Qaylə qəbiləsini məhv etsin! Bu dəqiqə onlar Quba-

da, Məkkədən gəlmiş o kişinin başına toplaşıb, onun peyğəmbər olduğunu iddia edirlər.” Mən bu sözləri eşidəndə bədənimdən isti bir üşütmə keçdi və az qaldım ki, ağacdan ağamın üstünə düşüm. Mən dərhal yerə enib ağamın əmisi oğluna yaxınlaşdım və ondan: “Sən nə dedin, nə dedin?”– deyə soruşdum. Bunu eşidəndə ağam qəzəbləndi və məni əməllicə kötəklədi. Sonra üstümə qışqırıb dedi: “Bunun sənə dəxli yoxdur, get, işinlə məşğul ol!” Mən ona: “Sadəcə, onun dediyini bilmək istəyirdim”– dedim, sonra da gedib işimlə məşğul oldum. Axşam düşdükdə mən bir qədər xurma götürüb Peyğəmbərin ﷺ yanına getdim. Həmin vaxt Peyğəmbər ﷺ Qubada idi. Mən onun yanına gəlib dedim: “Sənin əməlisaleh insan, ətrafındakı səhabələrin də ehtiyac içində olduğunu eşitmişəm. Odur ki, sədəqə vermək üçün saxladığım bu xurmaları sizə gətirmişəm. Sizin buna daha çox haqqınız çatır.” Bunu deyən-

dən sonra mən xurmaları Peyğəmbərə ﷺ uzatdım. Peyğəmbər ﷺ səhabələrinə: "Yeyin!"– dedi, özü isə bundan yemədi. Onda mən öz-özümə: "Bu, birincisi!"– dedim və çıxıb getdim, Peyğəmbər ﷺ də Mədinəyə getdi. Sonra mən yenə bir qədər xurma götürüb onun yanına gəldim və dedim: "Görürəm, siz sədəqə yemirsiniz. Odur ki, bu xurmaları sizə hədiyyə edirəm." Onda Peyğəmbər ﷺ xurmadan yedi və səhabələrinə də ondan yeməyi buyurdu. Mən yenə öz-özümə dedim: "Bu da, ikincisi!" Bir müddətdən sonra mən yenə onun yanına gəldim. Həmin vaxt o, Bəqi qəbiristanlığında səhabələrindən birinin dəfnində idi. O, səhabələri ilə birlikdə yerdə oturmuşdu, əbasını da çiyninə atmışdı. Bu vaxt mən onun arxa tərəfinə keçdim ki, bəlkə keşişin mənə vəsf etdiyi peyğəmbərlik möhürünü görəm. Mən Peyğəmbərin ﷺ arxa tərəfinə keçdikdə o, mənim nə istədiyimi başa düşdü və əbasını çiynindən aşağı saldı. Mən

onun çiyinləri arasındakı peyğəmbərlik möhürünü görən kimi onu qucaqlayıb öpdüm və hönkür-hönkür ağlamağa başladım. Peyğəmbər ﷺ mənə: "Gəl, otur!"– dedi, mən də oturub əvvəldən axıradək başıma gələnləri ona danışdım. Bu əhvalat Peyğəmbərə ﷺ çox təsir etdi və o, məndən başıma gələnləri səhabələrə də danışmağı xahiş etdi."[1]

Peyğəmbərin ﷺ: "İman Sürəyya ulduzunun yanında olsaydı, bu adam ora da gedib çıxardı"– deyə təriflədiyi[2], mal-dövlət və məqam sahibi olmasına baxmayaraq, haqqa qovuşmadan bu dünyadan köçüb getmək qorxusunu özünə dərd edən kişiyə diqqət edin! Budur, haqqı hər şeydən üstün tutan və ona qovuşmaq üçün hər cür əziyyətə qatlaşan, hətta kölə olmağa belə razı olan adamın fərqi!

---

[1] Musnəd imam Əhməd, 5/441-444; Silsilə əl-Əhadis əs-Səhihə, 894.

[2] Səhih əl-Buxari, 4897.

Bir gün Peyğəmbər ﷺ səhabələrinə رضي الله عنهم cihada dəstək olmaq üçün sədəqə verməyi əmr etdi. Səhabələrdən رضي الله عنهم hər kəs imkanı daxilində sədəqə verdi. Yalnız Ulbə ibn Zeyd رضي الله عنه adlı səhabə çox kasıb olduğundan, bu xeyrə şərik ola bilmədi. Səhabə çox məyus oldu. Nəhayət, gecə namazına qalxıb ağlaya-ağlaya belə dua etdi: "Allahım, Sən şahidsən ki, mənim sədəqə verməyə heç nəyim yoxdu. Lakin mən, haqqıma girmiş hər bir müsəlmana halallıq verməklə, bu əməlimi Sənin yolunda sədəqə edirəm!" Sübh namazından sonra Peyğəmbər ﷺ səhabələrinə dedi: "Qoy bu gecə öz haqqını sədəqə edən adam ayağa qalxsın!" Ulbə ibn Zeyd رضي الله عنه ayağa qalxdıqda, Peyğəmbər ﷺ dedi: "Sevin, canım Əlində olan Allaha and olsun ki, bu, sənin əməl dəftərinə qəbul olunmuş sədəqə kimi yazıldı."[1]

---

[1] Beyhəqi, Dəlail ən-Nubuvvə, 5/219; şeyx Albani hədisin isnadının "səhih" olduğunu demişdir. Bax: Fiqh əs-Sira, 1/405.

Özünün ehtiyacı olduğu halda, öz halını deyil, Allah yolunda sədəqə verə bilməməyi özünə dərd edən ehtiyac sahibinə diqqət edin! Budur, qəlbi zəngin olan kasıbın fərqi!

Rəvayət edilir ki, Huzeyfə ibn Yəmən رضي الله عنه demişdir: "İnsanlar Peyğəmbərdən ﷺ xeyirxah işlər barədə soruşardılar, mən isə ondan şər əməllər barəsində soruşardım ki, xətəri mənə dəyməsin. Mən dedim: "Ya Rəsulullah, biz, həqiqətən də, cahillik və şər içində yaşayırdıq. Allah bizə belə bir xeyir[1] nəsib etdi. Bu xeyirdən sonra şər gələ bilərmi?" Peyğəmbər ﷺ: "Bəli!"– dedi. Mən soruşdum: "Bəs bu şərdən sonra *yenə* xeyir gələ bilərmi?" Peyğəmbər ﷺ dedi: "Bəli, lakin bu xeyirə şər ləkəsi bulaşacaqdır." Mən soruşdum: "O, nə ləkədir?" Dedi: "Mənim yolumu tutub getməyən adamlar olacaq. Onlar yaxşı işlər gördükləri kimi, pis əməllər də edəcəklər."

---

[1] Burada İslam dininin və Muhəmmədin ﷺ peyğəmbər olaraq göndərilməsi nəzərdə tutulur.

Mən soruşdum: “Bəs, bu xeyirdən sonra şər gələcəkmi?” Dedi: “Bəli, həmin vaxt Cəhənnəmə çağıran azğın adamlar olacaq. Kim onların çağırışını qəbul etsə, Cəhənnəmə atılacaqdır.” Mən dedim: “Ya Rəsulullah, onları bizə vəsf et!” O buyurdu: “Onlar bizlərdən olacaq və bizim kimi danışacaqlar.” Soruşdum: “O vaxta qədər yaşasam, mən nə edim?” Buyurdu: “Müsəlman camaatına qoşul və onların imamına tabe ol!” Dedim: “Bəs, onların camaatı və imamı olmasa necə?” Buyurdu: “Arxa dişlərinlə ağac kökündən yapışmış olsan belə, o firqələrin hamısından uzaq dur və ölüm səni haqlayanadək bu vəziyyətdə qal!”[1]

Huzeyfənin ﵁ Peyğəmbərin ﷺ nümunəvi səhabələrindən olmasına və əsla şərə bulaşmamasına baxmayaraq, özündən sonra gələcək müsəlmanların fitnələrə qarışacağını özünə dərd etməsinə diqqət edin! Budur, Peyğəmbərin ﷺ: “Möminlər bir bədən kimidir-

[1] Səhih əl-Buxari, 3606.

lər. Bədənin bir əzasına xəstəlik üz verdikdə bütün bədən əziyyət çəkir"[1] deyərək vəsf etdiyi möminin fərqi!

Ömər ibn Əbdüləzizin ﵀ həyat yoldaşı rəvayət edir ki, bir gün mən Öməri, namazgahda oturub, əlini də yanağının altına qoyub ağladığını gördüm. Ondan: "Nə olub sənə, niyə ağlayırsan?"– deyə soruşdum. Belə cavab verdi: "Bu ümmətin məsuliyyəti mənim çiyinlərimə yükləndi. Bu ümmətdən yer üzündə yaşayan kasıbları, acları, xəstələri, kimsəsizləri, qocaları, əzilən məzlumları, biçarə müsafirləri, təkbaşına qalmış dul qadınları, könlü qırılmış yetimləri, qəribləri, kimsəsiz əsirləri, əldən-ayaqdan düşmüş insanları, ailəsi dağlımış zavallıları və bunlar kimi yardıma möhtac neçə-neçə insanları düşündüm. Bilirəm ki, Qiyamət günü Rəbbim bunların hesabını məndən soruşacaq. O gün onlar

[1] Səhih əl-Buxari, 6011.

Allahın hüzurunda haqlarını məndən istəyəcəkləri zaman, mənim halımın necə olacağından qorxduğum üçün ağlayıram."[1]

Dövrünün ən ali məqamına yüksəlmiş, zadəgan əsli-nəcabətilə tanınmış, əsrlərdir, hər kəsin ədalətli rəhbər kimi tanıdığı xəlifənin ümmətin sıxıntı və kədərini özünə dərd etməsinə diqqət edin! Budur, məqamının ona verdiyi imtiyazları, üstünlükləri deyil, rəiyyətin məsuliyyəti ilə yükləndiyini dərk edən rəhbərin fərqi!

Rəvayət edilir ki, Peyğəmbər ﷺ bir kötüyün üstündə dayanıb xütbə verərdi. Sonra onun üçün minbər düzəltdilər və o, minbərin üstündə durub xütbə verdikdə kötük hönkür-hönkür ağlamağa başladı. Peyğəmbər ﷺ minbərdən düşüb onu qucaqladı və o, sakitləşdi."[2]

---

[1] Siyər əl-Əlam ən-Nubələ, 5/131-132.

[2] Səhih əl-Buxari, 3583 və 3585.

Peyğəmbər ﷺ dedi: "Əgər mən onu qucaqlamasaydım, o, qiyamətədək ağlayacaqdı."[1]

Bizim cansız hesab etdiyimiz əşyanın Peyğəmbərə ﷺ olan xidmətinin sona çatmasını, Peyğəmbərin ﷺ mübarək vücudunun artıq ona toxunmayacağını özünə dərd etməsinə diqqət edin! Budur, bütün həyatımız boyunca qəlbimizlə, əməlimizlə, sözümüzlə Allah rəsuluna ﷺ gostərdiyimiz sevgi ilə, "cansız" hesab etdiyimiz bir əşyanın göstərdiyi əsl sevginin fərqi!

Odur ki, Həsən əl-Bəsri رحمه الله bu hədisi danışanda ağlayar və deyərdi: "Kötük bu ayrılığa dözə bilməyib ağladı. Siz, ey müsəlmanlar, Peyğəmbəriniz ﷺ üçün daha çox darıxmalısınız!"[2]

---

[1] Buxari, Tarix, 4/1/26; Sunən İbn Macə, 1/433; Silsilə əl-Əhadis əs-Səhihə, 2174.

[2] Səhih İbn Hibban, 6473; Silsilə əl-Əhadis əs-Səhihə, 2174.

((اللَّهُمَّ إِنَّا عِبَادُكَ أَبْنَاءُ عَبْدِكَ أَبْنَاءُ أَمَتِكَ، نَاصِيَتُنَا بِيَدِكَ، مَاضٍ فِينَا حُكْمُكَ، عَدْلٌ فِينَا قَضَاؤُكَ، نَسْأَلُكَ بِكُلِّ اسْمٍ هُوَ لَكَ سَمَّيْتَ بِهِ نَفْسَكَ، أَوْ أَنْزَلْتَهُ فِي كِتَابِكَ، أَوْ عَلَّمْتَهُ أَحَدًا مِنْ خَلْقِكَ، أَوِ اسْتَأْثَرْتَ بِهِ فِي عِلْمِ الْغَيْبِ عِنْدَكَ، أَنْ تَجْعَلَ الْقُرْآنَ رَبِيعَ قُلُوبِنَا، وَنُورَ صُدُورِنَا، وَجَلَاءَ حُزْنِنَا، وَذَهَابَ هَمِّنَا))

“Allahım, biz Sənin qullarınıq, atalarımız və analarımız da Sənin qullarındır! Bizi idarə etmək Sənin əlindədir. Barəmizdə verdiyin hökm yerinə yetəndir. Bizə yazdığın tale ədalətlidir. Sənə, Özünə verdiyin və ya Kitabında nazil etdiyin, yaxud yaratdıqlarından kiməsə öyrətdiyin, yaxud da Öz yanında olan qeyb elmində saxladığın, Özünə aid olan hər bir adla yalvarırıq ki, Quranı qəlbimizin baharı və köksümüzün nuru et, üzüntümüzün aradan qalxması və kədərimizün getməsi üçün səbəb et!”[1]

[1] Musnəd İmam Əhməd, 1/391.